**Qeyri-məhsuldar heyvanlar üçün yemlərin qeydiyyata alınması məqsədilə təqdim olunan sənədlərə**

**TƏLƏBLƏR**

Qeyri-məhsuldar heyvanlar (it, pişik, bəzək quşları və s.) üçün yemlərin qeydiyyata alınması məqsədilə aşağıdakı sənədlər tələb olunur:

1. yemin qeydiyyata alınması barədə *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə* müraciət məktubu;
2. yemin qeydiyyata alınması üçün Azərbaycan Respublikasında baytarlıq preparatlarının aprobasiyası, ekspertizası, sınaqdan keçirilməsi, dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması, istehsalı, idxalı, saxlanması, daşınması, satışı və istifadəsi Qaydalarının 1 nömrəli əlavəsində göstərilən forma üzrə ərizə;
3. yemin istehsalçı ölkədə və digər ölkələrdə qeydiyyata alınması barədə məlumat və ya həmin ölkələrdə qeydiyyat şəhadətnamələrinin surəti;
4. yemin 3 müxtəlif partiyasının hər birindən istehsalçı qablaşmasında 2 nümunə və ya nümunəgötürmə qaydalarına müvafiq olaraq götürülmüş, tərtib edilmiş və markirovkalanmış, imzalanmış, plomblanmış (möhürlənmiş) orta nümunələr. Belə nümunələr nümunəgötürmə aktı ilə təmin edilir. Hər partiyanın nümunələrinin keyfiyyət sertifikatları təqdim edilir;
5. qeydəalma sənədlər toplusu;

sənədlər toplusunda aşağıdakı məlumatlar olmalıdır:

istehsalçı firma haqqında məlumat;

yemin ümumi qəbul edilmiş adı və onun təyinatı;

texniki şərtlər (MDB ölkələri üçün);

texniki tələblər və analiz metodları (digər xarici ölkələr üçün);

yemin tərkibi, bütün inqrediyentlər göstərilməklə (bitki və heyvan mənşəli inqrediyentlər, preparatlar, vitaminlər, konservantlar, antioksidantlar, minerallar və s. bioloji fəal maddələr, onların mənşəyini, miqdarını, nə məqsədlə qatıldığını, standartlara və NTS-ə uyğunluğunu göstərməklə);

yemin yedizdirilmə qaydası;

yemin qablaşdırılması, saxlanma şəraiti, yararlılıq müddəti.